# İŞIQ

*İctimai-siyasi qəzet*

| Qəzet 1930-cu ildən çıxır | ŞİRVAN ŞƏHƏRİ | №07 (7496) | 4 iyul 2021-ci il | Bazar | Qiyməti 20 qəp. |
|---|---|---|---|---|---|


## 15 İyun-Milli Qurtuluş Günü münasibəti ilə ümumşəhər tədbiri



**Şirvan Şəhər İcra Hakimiyyətinin Tədbirlər Planına uyğun olaraq 15 iyun Milli Qurtuluş Günü şəhərin idarə, müəssisə və təşkilatlarında geniş qeyd olunub. Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasovun, Şura üzvlərinin, hüquq-mühafizə orqanlarının rəhbərlərinin iştirakı ilə keçirilən ümumşəhər tədbiri öncə şəhərin mərkəzi meydanında Ulu öndər Heydər Əliyevin abidəsini ziyarətlə başladı. Abidə önünə gül-çiçək dəstələri qoyularaq Ulu öndərin əziz xatirəsi dərin ehtiramla yad edildi.**

Tədbir iştirakçıları sonra Heydər Əliyev Mərkəzində Ümummili lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən eksponantlarla tanış oldular. İcra Hakimiyyətinin başçısı İlqar Abbasov çıxış edərək Milli Qurtuluş Gününün yaranma tarixindən söz açdı. Ulu öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarısındakı tarixi xidmətlərini özündə ehtiva edən bu günün layiqincə dəyərləndirildiyini və qeyd edildiyini bildirdi. Böyük şəxsiyyətin xalqımızı parçalanmaqdan, xaosdan, anarxiyadan, vətəndaş müharibəsindən qurtardığını, ölkəmizi iqtisadi inkişafa, tərəqqiyə yönəltdiyini, həyatda sosial ədalətin, qanunun əsas meyar kimi qəbul edilməsini təmin etdiyini diqqətə çatdırdı. Ulu öndər Heydər Əliyevin xalqımıza bəxş etdiyi milli qurtuluş yolunun bu gün də möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə layiqincə davam etdirildiyindən, 30 ilə yaxın müddət ərzində işğal altında olan torpaqlarımızın azad ediməsi uğrunda gedən Vətən müharibəsində Qalib Ali Baş Komandan və müzəffər ordumuzun əldə etdiyi Qələbədən, Qarabağın baş tacı olan Şuşamızın bərpası istiqamətində aparılan işlərdən, Ümummilli liderin arzularının reallaşmasından danışdı. İlqar Abbasov tədbir iştirakçlarını Milli Qurtuluş Günü münasibətilə təbrik etdi, milli qurtuluşumuzun əbədi olmasını arzuladı. Sonra tədbir iştirakçıları Milli Qurtuluş Gününə həsr olunmuş məktəblilərin rəsm sərgisi ilə tanış oldular. Şəhər İcra Hakimiyyətinin başçısı, Şura üzvləri, hüquq-mühafizə orqanlarının, təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin rəhbərləri Şəhər İcra Hakimiyyətinin akt zalında Ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən "Xilaskar" sənədli filminə tamaşa etdilər.

## Dövlət qulluqçularının peşə bayramı günü layiqincə qeyd olundu

**23 İyun – Dövlət qulluqçularının peşə bayramı günü münasibətilə Şirvan şəhərində ümumşəhər tədbiri keçirilib. Tədbirdə Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, Şəhər İcra Hakimiyyəti aparatının dövlət qulluqçuları, şəhərdə fəaliyyət göstərən dövlət orqanlarının rəhbərləri və onların dövlət qulluqçuları iştirak edib.**




Tədbir iştirakçıları ilk olaraq Ümummili lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər. Abidə önündə xatirə şəkli çəkdirdikdən sonra İcra Hakimiyyətinin başçısı dövlət qulluqçularını peşə bayramı münasibətilə təbrik edərək hər birinə bu şərəfli yolda uğurlar arzulayıb.

Dövlət qulluqçularının peşə bayramı gününə həsr olunmuş tədbir Şəhər İcra Hakimiyyəti aparatının məsul şəxslərinin və təltif olunacaq dövlət qulluqçularının iştirakı ilə Şəhər İcra Hakimiyyətinin akt zalında davam edib. Tədbiri giriş sözü ilə açan İcra Hakimiyyətinin başçısı İlqar Abbasov Azərbaycanda müasir dövlət qulluğu sisteminin formalaşdırılması və inkişafında, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunda Ümumilli lider Heydər Əliyevin əvəzsiz xidmətlərindən danışıb. Ölkədə dövlət qulluğu sisteminin təkmilləşməsinə, dövlət qulluqçularının sosial müdafiəsinə göstərilən diqqət və qayğıdan bəhs edən İlqar Abbasov Ölkə başçısının 2006-cı il 25 may tarixli Sərəncamı ilə Dövlət qulluqçularının peşə bayramı gününün təsis edilməsinin bu sahədə çalışan insanların əməyinə ən yüksək səviyyədə dəyər verilməsinin təzahürü olduğunu söyləyib. Vətənə xidmət işində hər bir dövlət qulluqçusuna ən ideal örnəyin möhtərəm Prezidentimiz cənab İlham Əliyevin olduğunu vurğulayıb. Qeyd edib ki, dövlətimizin möhkəm təməllər üzərində qurulmasının nəticəsi olaraq, 44 günlük Vətən müharibəsində şanlı zəfər çaldıq, torpaqlarımız işğaldan azad edildi, ərazi bütövlüyümüz bərpa olundu.

Sonra çıxış edən Şəhər İcra Hakimiyyəti başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Aynur Fərzəliyeva ölkəmizdə dövlət idarəetmə sistemində həyata keçirilən islahatlar, vahid dövlət siyasətinin formalaşdırılması, kadr siyasətinin əsas prinsiplərinin müəyyən edilməsi, geniş hüquqi bazanın yaradılması sahəsində görülən işlər haqqında danışıb. Hər il Ölkə başçısı tərəfindən uzun illər dövlət qulluğunda səmərəli fəaliyyət göstərən və öz vəzifəsini ləyaqətlə yerinə yetirən dövlət qulluçularının müxtəlif orden və medallarla təltif edildiyini vurğulayb. Bu isə şərəfli peşə sahibləri sırasında fərqlənənlərə dövlət başçısının diqqətinin bariz nümunəsi olduğunu qeyd edib. Tədbirin sonunda Dövlət qulluqçularının peşə bayramı münasibəti ilə və şəhərin ictimai həyatında fəal iştirak etdiklərinə görə bir qrup dövlət qulluqçusu Şəhər İcra Hakimiyyəti başçısının fəxri fərmanları ilə, Vətən müharibəsi dövründə arxa cəbhədə fəallığı ilə fərqləndiyinə görə Şəhər İcra Hakimiyyətinin Ərazi idarəetmə və yerli özünü idarəetmə orqanları ilə iş şöbəsinin müdiri Hənifə Mövlayev Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən fəxri fərmanla təltif edilib. Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən təltif edilmiş Şirvan Şəhər İcra Hakimiyyəti başçısının müavini, Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Məharət Mustafayevə "Hərbi vətənpərvərlik tərbiyəsində xidmətlərə görə" Azərbaycan Respubliksının medalı təntənəli surətdə təqdim olunub. Təltif olunan dövlət qulluqçuları onların əməyinə verilən yüksək dəyərə görə ölkə başçısına minnətdarlıqlarını bildirib, bundan sonra da dövlətə vicdanla və ləyaqətlə xidmət edəcəklərini vurğulayıblar.

### TƏBRİK EDİRİK!

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu günlərdə dövlət qulluqçularının təltif edilməsi haqqında sərəncam imzalamışdır.

Sərəncama əsasən Şirvan şəhər İcra Hakimiyyətininin informasiya təminatı və təhlili sektorunun müdiri Məmmədov Emil Hacalı oğlu dövlət qulluğunda səmərəli fəaliyyətinə görə «Dövlət qulluğunda fərqlənməyə görə» medalı ilə təltif olunub.

Bu münasibətlə Emil Məmmədovu təbrik edir və yeni-yeni uğurlar arzulayırıq.

**«İŞIQ»**

**26 İyun Silahlı Qüvvələr Günü və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamları ilə təltif edilmiş hərbi qulluqçuların medallarının təqdim olunması münasibətilə Şirvan şəhərində ümumşəhər tədbiri keçirilib. Tədbirdə Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, İcra Hakimiyyəti aparatının məsul əməkdaşları, hüquq-mühafizə orqanlarının rəhbərləri, Vətən müharibəsi şəhidlərinin valideynləri, təltif olunmuş müharibə iştirakçıları və qazilər iştirak ediblər.**




## Silahlı Qüvvələr Günü münasibətilə ümumşəhər tədbiri

Tədbir iştirakçıları əvvəlcə Ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər.

Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov tədbiri giriş sözü ilə açdıqdan sonra Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib. Torpaqlarımızın işğaldan azad edilməsi, Vətənimizin bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Qalib Ali Baş Komandan başda olmaqla Azərbaycan Ordusunun bütün şəxsi heyətini Silahlı Qüvvələrin yaranmasının 103-cü ildönümü münasibətilə təbrik edən İlqar Abbasov bu günü qalib xalq kimi qeyd etməkdən qürur duyduğunu vurğulayıb. Şəhidlərə Allahdan rəhmət, ailələrinə səbir, qazilərə şəfa diləyib. Qələbə sevincini və qürurunu xalqımıza yaşadan şəhidlərin və qazilərin hər zaman qəlblərdə yaşayacağını, heç zaman unudulmayacağını qeyd edib. Dövlətimiz və xalqımız qarşısında xidmətləri olan insanların Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən xüsusi diqqət və qayğı ilə əhatə olunduqlarından bəhs edib. Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını və xidməti vəzifələrini yerinə yetirərkən fərqlənmiş hərbi qulluqçuların ölkə başçısının sərəncamları ilə müxtəlif orden və medallarla, fəxri adlarla təltif edildiyni diqqətə çatdırıb. Təltifə layiq görülən qəhrəman əsgər və zabitlər arasında Şirvan şəhərindən hərbi xidmətə səfərbər edilən yüzlərlə gənclərimizin olduğunu vurğulayıb. Qəhrəman əsgər və zabitlərimizin bundan sonra da Vətənimizin keşiyində əzmlə, rəşadətlə və vüqarla dayanacağını söyləyib.

Çıxış üçün söz Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şirvan şəhər şöbəsinin rəisi, polkovnik- leytenant Zaur Əliyevə verilib. O, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin inkişafı tarixində Ulu öndər Heydər Əliyevin müstəsna xidmətlərindən danışıb. Qeyd edib ki, Ulu öndərin 1998-ci il mayın 22-də imzaladığı Fərmana əsasən, artıq 23 ildir ki, 26 İyun – Silahlı Qüvvələr Günü Azərbaycanda ümumxalq bayramı kimi qeyd edilir. Ömür yolu və zəngin siyasi fəaliyyəti hər birimizə ən dəyərli örnək olan Ulu öndərin siyasi kursunun Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini söyləyib. Qeyd edib ki, maddi-texniki təminatın daha da yaxşılaşdırılması, peşəkar hərbi hazırlıq, hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən kompleks tədbirlər nəticəsində Silahlı Qüvvələrimiz regionun ən güclü ordusuna çevrilib. Gənclərmizin yüksək vətənpəvərlik və qəhrəmanlıq nümunələrinə 44 günlük Vətən müharibəsində bir daha şahid olduğumuzu diqqətə çatdırıb.

Sonra şəhid ailələri adından şəhid atası Alim Zülfüqarlı çıxış edərək, qəhrəman atası, şəhid atası olmaqdan qürur duyduğunu bildirib. Qeyd edib ki, xalqı xalq eləyən uğrunda canından keçməyə hazır olan oğullarıdır. Torpaqları işğaldan azad edilmiş, müstəqil, qalib xalq olduğumuz üçün çox xoşbəxtik. Şəhid ailələrinə və qazilərə göstərilən diqətə və qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident, çox hörmətli Mehriban xanım Əliyevaya minnətdarlığını ifadə edib. Ölkə Prezidentinin 25 iyun 2021-ci il tarixli "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərində xidmət göstərilməsi Qaydası"-nı Şəhər İcra Hakimiyyəti başçısının müavini Aynur Fərzəliyeva tədbir iştirakçılarının diqqətinə çatdırdı.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İham Əliyevin müvafiq sərəncamları ilə Vətən müharibəsində yüksək fədakarlıq və rəşadət nümayiş etdirərək şəhid olan hərbi qulluqçuların təltifləri onların ailələrinə, ölkəmizin ərazi bütövlüyü, suverenliyi, müstəqilliyi uğrunda hərbi əməliyyatlarda göstərdikləri şəxsi igidlik və şücaətə görə fərqlənən müharibə iştirakçılarının və qazilərin təltifləri özlərinə təntənəli şəkildə təqdim olunub.

Təltiflər Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şirvan şəhər şöbəsinin rəisi Zaur Əliyev, Şirvan Apellyasiya Məhkəməsinin sədri Vəli Abdullayev, Şirvan şəhər Polis şöbəsinin rəisinin müavini Ramil Salayev, Şəhər Prokurorluğunun böyük müstəntiqi Nemət Məmmədov, Şirvan şəhər Məhkəməsinin sədri Elçin Qurbanov, Dövlət Təhlükəsizlik Xidmətinin Şirvan şəhər şöbəsinin rəisi Təhmasib Gözəlov tərəfindən təqdim olunub

# ƏZİZ ŞUŞA, SƏN AZADSAN!

*(əvvəli qəzetimizin 6 iyun 2021-ci il tarixli nömrəsində)*

## Bir il sonra yenidən Şuşada

*1979-cu il ikinci dəfə Şuşanı ziyarətə yollandıq. Bu belə oldu. Bir il öncəsi Şuşadan istirahətdən qaydandan sonra bu səfərlə bağlı o qədər xoş təəssüratlar söylədim ki, iş yerində yoldaşlarım söz verdilər ki, növbəti il 2 günlük isirahət günlərini də olsa, Şuşada keçircəcəyik.*




1979-cu ilin isti yay günləri başlamışdı. Mərhum Ağaxan İsgəndərov məsələni qaldırdı. Həmkarlar təşkilatı «hərəkətə keçsin».-dedi: 2 günlük Şuşaya səfər təşkil olunsun. Bir il öncəsi istirahətin dadı deyəsən Ağaxan müəllimin damağından getməmişdi. Həmkarlar təşkilatının sədri kimi elan yazıb redaksiyanın diqqəti cəlb edən yerindən asdım. O illərdə «İŞIQ», «Mayak» (rus dilninlə çıxan qəzet) və radio verilişləri redaksiyaları indki İsmət Qayıbov 16-dakı binada yerləşirdi. O vaxt şəhərimizdə fəaliyyət göstərən 2710 nömrəli avtomobil dəstəsinə rəsmi müraciət etdik. Bizim üçün avtobus ayrıldı. Müəyyən hazırlıq görüb iyul ayının (1979-cu il) 27-də cümə günü, işdən sonra 10 nəfərlə yola çıxdıq. Bu sətirlərin müəllifi, Ağaxan müəllim, «Mayak» qəzetindən Lətif Novruzov, radio verilişləri redaksiyasının redaktoru Rasim Nəhmədov, şatatdankənar müxbirlər Rafiq Rəsulov, İslam Əliyev, Sədaqət Qarayev, Əkbər Zülfüqarov, Əşrəf Hüseynov yola düşdük.

Səferimiz çox maraqlı başladı. Mədəniyyət işçilərimizin bizimlə olması səfərimizi şən, səmərəli etmişdi. Ağdama çatanda artıq hava qaralmışdı. Hacıqabuldan olan sürücü İnqilab kişi (sağdırsa Allah ömür versin, haqq dünyasına qovuşubsa Allah rəhmət eləsin) təklif etdi ki, axşamı Ağdamda keçirək. Sübh tezdən Şuşaya gedərik. «Əhval-ruhiyyəmiz» yüksək olan bizlər isə «yox», gecə ilə də olsa Şuşaya bu gün çatmalıyıq, dedik. Sürücü etiraz etmədi. Yola düzəldik. Əsgəranı keçəndən sonra el arasında deyildiyi kimi, yolu azdıq. Maşını saxlayıb düşdük. Yoldan keçən iki nəfər nəfərə yaxınlaşıb Şuşanın yolunu soruşduq. Əvvəlcə onlar erməni dilində bir-biri ilə nəsə danışdılar. Sonra sürücümüzə Şuşa yoluna necə çıxacağını izah etdilər. Yola düzəldik Ermənilərin istiqamətləri ilə dar,döngəli yollarda hara getdiyimizi bilmirdik. Ayıq-sayıq olan sürücümüz avtobusu saxladı. Dedi ki, əksəriyyətiniz cavansız. Erməniyə inanmaq olmaz. Geri dönək... Biz yenə təkid edik.

-Sür, dedik.

İnqilabın bizim dediyimzlə hərəkət etməkdən başqa əlacı qalmadı. Təxminən 100 metrə qədər yol qət etmişdik ki, qəbiristanlığa gəlib çıxdığımızı gördük. Sola dönəndə isə dalana dirəndik. Geri dönməkdən başqa çarəmiz qalmadı. Bu dəfə sürücüyə «necə bilirsən elə et» demək məcburiyyətində qaldıq. Pərt olduğumuzu görən İnqilab heç nə olmamış kimi maşını geri döndərdi, ətrafı diqqətlə nəzərdən keçirdi. Bir çay qıraği seçdi. Orada gecələyib sübh tezldən yola çıxdıq.

Amma Şuşaya çatandan sonra axşamkı narahatlığımız yox olub getdi. Cıdır düzündə, İsa bulağında, bir-birindən gözəl yerlərdə olduq. Axşamı isə əvvəlcədən razılaşdığımız kimi, şəhərimizin burada fəaliyyət göstərən Pioner düşərgəsində gecələdik. Düşərgənin rəhbərliyi bizi çox səmimi qarşıladı. Bizimlə mədəniyyət işçilərinin gəldiyini biləndə çox sevindi. Uşaqlar qarşısında çıxış etmələrini istədilər. Əkbər Zülfüqarov (rejissor), Sədaqət Qarayev (qiraət ustası, aktyor) İslam Əliyev (aktyor) səhnəciklər göstərdilər, musiqiçilər maraqlı konsert proqramı ilə çıxış etdilər. Düşərgə rəhbərliyi, uşaqlar, elə biz özümüz də bu görüşdən razı qaldıq. Səhəri bir neçə görməli yerləri gəzdikdən sonra (düşərgə rəhbərliyinin köməyi ilə) çox böyük təəssüratla bu günki Şirvan şəhərinə (keçmiş Əli Bayramlı) döndük.

Şuşadan dediyim kimi, xoş təəssüratla geri döndük. Amma 2 məsələ yadıma düşəndə narahatlıq keçirirdim. Ayıq-sayıq sürücümüz İnqilabın sözünə baxmayıb gecəni Şuşaya qalxmağı təkid etməyimizi və erməni hiyləsinə inanıb qəbiristanlığa gedib çıxmağımızı. Məsələ burasındadır ki, şəxsən mən ermənilərin bizə qarşı bu qədər nifrətə malik olduğunu bilmirdim. Elə bu şəhərdə yaşayan ermənilərdən o qədər oçerklər yazıb şəkillərini qəzetimizin səhifələrinə çıxarmışam ki. 1980-cı illərin sonuna kimi mən, ali təhsil almış jurnalist ermənilərin kim olduğunu dərk etməmişdim.

**Əziz Şuşa, sən azadsan!**
**Qarabağ bizimdir!**

Bəli, 30 ildən çox idi ki, torpaqlarımızın təxminən 20 faizi düşmən tapdağı altında inləyirdi. Ev-eşiklərimiz milli-mənəvi dəyərlərimiz olan abidələrimiz yerlə yeksan edilirdi. Flora, fauna göz görə-görə məhv olunurdu.

Ulu öndər Heydər Əliyev ikinci dəfə xalqın təkidi, təklif və xahişi ilə hakimiyyətə qayıtdıqdan sonra respublikada böyük quruculuq işlərinə başlandı, xaosa, anarxiyaya son qoyuldu. Torpaqlarımızın azadlığı uğrunda müdrik, siyasətin bünövrəsi qoyuldu. Milli ordu quruculuğu başlandı. Ordunun müasir döyüş texnikası, döyüş sursatı ilə təminatına başlandı. Ən əsası isə gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinə xüsusi diqqət yetirildi. Müasir döyüş texnikasının sirlərinə yiyələnən zabit, əsgər heyətinin yetişdirilməsi yaxın gələcəkdə uğurlarımızdan xəbər verirdi. Ulu öndərin siyasətini uğurla davam etdirən ölkə Prezidenti,Müzəffər Ali Baş Komandan İlham Əliyev torpaqlarımızın azad olunması istiqamətində gecəli- gündüzlü çalışdı. Həmişə də deyirdi ki, biz işğalla barışmayacağıq. Havadarlarına arxalanıb torpağımızı zəbt edən düşmən bilməlidir ki, topaqdan pay olmaz. Düşmən sülh, danışıqlar yolu ilə dədə-baba yurdlarımızdan geri çəkilməzlərsə ordu sözünü deyəcək. Hiyləgər düşmən unutmuşdu ki, qəhrəman Azərbaycan xalqı prezident dediyi kimi işğalla barışmayacaq.

2020-ci ilin 27 sentyabrı. Azğın erməni faşistlər növbətii təxribatlar törətməyə başladılar. Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin əmri ilə ordumuz əks hücuma keçdi. 44 gün ərzində torpaqlarımız işğaldan azad edildi. 3 rayonumuz-Kəlbəcər, Ağdam, Laçın bir güllə atılmadan Rusiya Prezdienti V.Putin, Azərbaycan Prezidenti İ.Əliyev, Ermənistanın baş naziri N.Paşinyan tərəfindən 2020-ci ilin noyabrın 10-da imzalanmış üçtərəfli sazişə əsasən azad olundu.

Azad olunmuş rayonlarda kənd və qəsəbələrdə abadlıq, quruculuq işləri görülür. Yollar çəkilir, hava limanları tikilir və s. Şuşanı işğaldan azad edilməsindən cəmi 7 ay sonra burada möhtəşəm tədbir keçirildi. «Xarıbülbül» musiqi festivalı 30 ildən sonra bərpa edildi. Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin, Birinci vitse- prezident Mehriban xanım Əliyevaının, qızları Leyla və Arzu Əliyevaların iştirak etdikləri bu möhtəşəm tədbirə 1000 nəfərə yaxın qonaq qatıldı. 2 gün burada çal-çağır eşidildi. Tanınmış sənətçilərimzlə yanaşı Azərbaycanda yaşayan etnik xalqların nümayəndələri maraqlı konsert proqramı ilə çıxış etdilər. Bununla bir daha sübut olundu ki, Azərbaycan xalqı sülhsevər, tolerant xalqdır. Azərbaycan dövləti, onun prezidenti burada yaşayan bütün xalqlara öz vətəndaşı kimi yanaşır. Bundan sonra da bu dövlət, bu ölkənin Prezidenti bu siyasəti yeridəcək. Xalqla iqtidarın bir yerdə olması isə uğurlarımızdan, möhtəşəm qələbələrimizdən xəbər verir.

Bəli, Şuşa da işğaldan azad olunmuş torpaqlarımız kimi xoş günlərini yaşayır. Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin dediyi kimi, Əziz Şuşa, sən azadsan!

Şuşamız azaddır. Qarabağ da bizimdir. Nida.

Biz torpaqlarımızın azad olunması uğrunda şirin canlarından keçmiş şəhidlərimizə Allahdan rəhmət diləyirik. Qazilərimizə sağlamlıq arzulayırıq. Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev bu xoşbəxtliyi bizlərə bəxş edib.Biz buna görə ona borcluyuq.

İnanırıq ki, tezliklə işğaldan azad olunmuş torpaqlarımız minalardan təmizlənəcək bu yurdun sakinləri öz dədə-baba torpaqlarına dönəcəklər. Ölkə Prezidentinin dediyi kimi, öz torpaqlarımızda əbədi yaşayacağıq. Çünki bu torpaq bizimdir, bizim də olacaq.

Bəli, bu torpaqlar bizimdir. Onların azad olması üçün illər uzunu çalışmışıq, səy göstərmişik. Şükürlər olsun ki, düşmən əzəli torpaqlarımızdan qovulub. Bundan sonra elə yaşayıb elə çalışmalıyıq ki, düşmən bir daha baş qaldırmasın. Əks halda düşmən yenidən dəmir yumruğumuzla qarşılaşacaq. Eyni zamanda unutmamalıyıq ki, biz kiminlə qonşuyuq. Hiyləgər düşmənə qarşı həmişə ayıq-sayıq olmalıyıq. Mən bu yazımın əvvəlində əbəs yerə erməni hiyləsindən, saxtakarlığından bəhs etmədim. Şahidi olduğum hadisəni 42,43 ildən sonra qələmə almadım. Unutqanlığı kənara atıb, düşmən hiyləsinə, düşmənin «şirin» dilinə uymamalıq. Həmişə bir olub, bir-birimizə arxa, dayaq olmalıyıq. Yalnız bunula düşməni susdura bilərik.

**F.RƏHİMOV**



# Vətən müharibəsinin şəhidi Nicat Hüseynovun cənnətdəki ilk doğum günü qeyd olunub

**Vətən müharibəsində şəhadətə yüksələn Şirvan şəhərinin qəhrəman oğullarından biri Nicat Ziyafət oğlu Hüseynovun cənnətdəki ilk doğum günü 24 yaşı anadan olduğu, boya-başa çatdığı Şirvan şəhərində qeyd olunub.**

Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, millət vəkili İltizam Yusifov, hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhidin ailə üzvləri, dostları və ictimaiyyət nümayəndələri Nicat Hüseynovun doğum günü münasibətilə Şəhidlər Xiyabanında məzarını ziyarət edib, önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla yad edib, ruhuna dualar oxuyublar.

Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov canını Vətənə qurban verməkdən çəkinməyən belə bir qəhrəman oğul böyütdüyü üçün Nicatın anası Zümrüd xanıma minnətdarlığını bildirib, Allahdan şəhidlərimizə rəhmət, şəhid analarına səbir arzulayıb. Qeyd edib ki, 2020-ci ilin 27 sentyabrında başlayan və 44 gün davam edən Vətən müharibəsində igid, cəsur, qəhrəman oğullarımız göstərdikləri şücaətlə bir daha sübut etdilər ki, bu yurdu qorumağa qadir olan ləyaqətli oğullarımız var. Sıravi əsgərindən tutmuş generalınadək hər bir döyüşçünün əlində silah Vətənin bütövlüyü, torpaqlarımızın azadlığı uğrunda canını fəda etməyə hazır olduğunu vurğulayıb. Müzəffər Ali Baş Komandanın qətiyyəti, əzmi, milli ruhu, yüksək idarəçilik dəyərləri və rəhbərliyi ilə Azərbaycan ordusunun tariximizin ən şanlı qələbəsini qazandığını bildirib. Nicatın və bütün şəhidlərimizin hər zaman qəlblərdə yaşayacağını, onların ailələrinin dövlətə əmanət olduğunu diqqətə çatdırıb. Şəhidin məzarı yanında çıxış edən millət vəkili İltizam Yusifov şəhid adının müqəddəsliyindən və əzəmətindən bəhs edib. Xalqımıza bəxş etdikləri qələbənin yaratdığı qürur hissinə görə şəhidlərimizə borclu olduğumuzu söyləyib.

Şəhidlər Xiyabanında keçirilən ağacəkmə aksiyasında şəhid anaları Şirvan şəhərinin Vətən müharibəsi şəhidlərinin hər birinin adına bir ağaç əkib. Sonra tədbir iştirakçılarından bir qrupu Nicat Hüseynovun vaxtilə işlədiyi "Şirvan Araz zavodu" MMC-də onun xatirəsinə həsr olunmuş guşə ilə tanış olub. Açıq havada Şirvan Dövlət Rəsm Qalereyasının şəhidin ömür yolunu əks etdirən rəsm sərgisi nümayiş olunub. Tədbir şəhid Nicat Hüseynovun xatirə lövhəsinin açılışı ilə davam edib. Açılışda Şəhər İcra Hakimiyyətinin məsul əməkdaşları, idarə və müəssisə rəhbərləri, Milli Qəhrəman Eldar Xəlilovun anası, şəhidin sinif rəhbəri, iş yoldaşları, döyüş yoldaşları Nicatın döyüş yolundan, göstərdiyi qəhrəmanlıqdan və şücaətdən danışıblar. Çıxış edənlər Azərbaycan xalqının qüruru, fəxri olan bütün şəhidlərimizin xatirələrinin daim əziz tutulacağını, Nicatın təkcə şirvanlıların, doğma el-obasının oğlu deyil, bütöv Azərbaycanın oğlu olduğunu, onunla hər bir azərbaycanlının qürur duyduğunu vurğulayıblar. Şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident, çox hörmətli Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər. Sonra məktəblilər şəhidlərə həsr olunmuş bədii kompozisiya ilə çıxış ediblər. Şəhər İcra Hakimiyyəti aparatı adından şəhidin anasına xatirə hədiyyəsi təqdim olunub. Tədbirin sonunda şəhid anaları simvolik olaraq hər bir şəhidin ruhuna havaya ağ göyərçinlər uçurublar. Allah rəhmət eləsin!

**Ruhu şad olsun!**

# ŞƏHİD GİZİR ZEYNAL ZÜLFÜQARLININ AD GÜNÜ QEYD EDİLDİ

**Bu günlərdə Xüsusi təyinatlıların giziri, sərrast minamyotçu, Füzuli bölgəsində qəhrəmancasına şəhid olan 1995-ci il təvəllüdlü Zeynal Alim oğlu Zülfüqarlının doğum günü qeyd idi. Onun ad gününü belə diqqət mərkəzində saxlayan Şirvan şəhər İcra Hakimiyyəti şəhidin ad gününün qeyd olunması təşəbbüsünü irəli sürmüşdür. Bu münasibətlə İcra hakimiyyətinin başçısı İlqar Abbasov və aparat işçiləri, şəhər bələdiyyəsi, ictimai təşkilat nümayəndələri, mətbuat işçiləri Zeynal Zülfüqarlının dəfn olunduğu Şəhidlər Xiyabanında olmuş, məzarı önünə gül-çiçək dəstələri qoyulmuş, xatirəsi yad edilmişdir.**



Sonra bunun davamı olaraq Zeynalın bir vaxtlar yaşadığı evin önündə qohum və qonşuların, şagird və pedaqoqi işçilərin, ictimai birliklərin də iştirakı ilə yığıncaq keçirildi. Əvvəlcə şəhər bələdiyyəsinin sədri Kürdoğlu Muradov çıxış etdi. O, Zeynalın valideynlərinə belə qəhrəman oğul tərbiyə edib böyütdüyünə görə təşəkkürünü bildirərək onların hər hansı bir problemləri olarsa kömək göstəriləcəyini söylədi. Şəhər icra hakimiyyəti ictimai və humanitar şöbəsinin baş məsləhətçisi Samirə İsmayılova, Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Elvin Balayev, Yeniləşən dövlətə dəstək ictimai birliyin, Milli Qəhrəman Mübariz İbrahimov adına vətənpərvər cəmiyyətinin bölgə sədri Sahil Rəhimov, 21 nömrəli tam orta məktəbn direktoru Sədət Quliyeva, Salyan rayonundan olan Milli Qəhrəman Murad Mirzəyevin atası Telman Mirzəyev və başqaları da çıxış edərək ürək sözlərini dilə gətirdilər və belə cəsur vətənpərvər oğullarımızla, müzəffər Ali Baş Komandan İlham Əliyevlə və ordumuzla fəxr etdiklərini söylədilər.

Sonra giriş davazasının önünə vurulmuş «Xatirə lövhəsi»nin önündə şagirdlərin hazırladıqları «Qəhrəmanlıq» kompozisiyası nümayiş etdirildi. 21 nömrəli məktəbin 10-cu sinif şagirdi Pərvin Şirəlizadənin söylədiyi «Mən Qarabağa gedirəm» şeiri xüsusi maraqla qarşılandı.

Şəhid Zeynal Zülfüqarlının atası Alim kişi, anası Şəlalə xanım, bacısı Xəyalə, qardaşı Nasif çıxış edərək başda ölkə Prezidenti olmaqla şəhər icra hakimiyyəti, bələdiyyə, ictimai təşkilat rəhbərlərinə və digərlərinə təşəkkür etdilər. Zeynalın ad günündə iştiraklarına, maddi və mənəvi dayaq durduqlarına görə minnətdarlıqlarını bildirdilər.

Sonda toplantı iştirakçıları Zeynal Zülfüqarlının ailə üzvləri ilə birlikdə xatirə şəkili çəkdirdilər.

**Musaxan HEYDƏRLİ,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

**Azərbaycan Silahlı Qüvvələri 44 günlük Vətən müharibəsində misilsiz rəşadət göstərdi. Vətən müharibəsi bizim böyük zəfərimizlə bitdi. Zəfərimizin tarixi məqamı isə 28 il yarım işğal altında qalan, hərbi-siyasi nöqteyi-nəzərdən strateji əhəmiyyət daşıyan Şuşa şəhərinin döyüş şücaəti göstərilərək azad edilməsi oldu. Döyüşçülərimiz dağlar, dərələr, meşələr keçərək, Şuşa şəhərində dişinə qədər silahlanmış düşmənə qarşı texnikasız, yüngül silahlarla, süngü-bıçaqla vuruşublar. Xalqımızın belə fədakar oğullarından biri də çavuş Əlizadə Nicat Elxan oğludur.**

Qazilərimiz

# Vətəninə və xalqına layiq gənc olduğunu döyüş sınağında sübut etdi

Çavuş Nicat Əlizadə 1994-cü il noyabrın 9-da Şirvan şəhərində anadan olub. 2002-2012-ci illərdə Şirvan şəhərindəki 3 saylı tam orta məktəbdə təhsil alıb.

2013-cü ilin yanvar ayından 2014-cü ilin iyul ayınadək Nicat Dövlət Sərhəd Xidmətinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Hərbi xidmətini bitirməsinə baxmayaraq, torpaqlarımızın düşmən tapdağında olması Nicatı hər zaman narahat etdiyi üçün bundan sonrakı həyatını və işini hərbiyə bağlamaq qərarına gəlir. O, 2015-ci ilin avqust ayında Daxili Qoşunlarda müddətdən artıq xidmət etmək üçün sənədlərini verərək, Lənkəran rayonunda yerləşən "N" saylı hərbi hissədə xüsusi vasitələrin tətbiqi dəstəsində radiotelefonçu-atıcı vəzifəsinə təyin olunub. 2017-ci ilin avqust ayında isə xüsusi təyinatlı dəstədə eyni vəzifəyə keçirilib. Vətən müharibəsi başlayana qədər bu vəzifədə xidmət edən Nicat xüsusi təyinatlıların sırasında torpaqlarımızın azad edilməsi uğrunda mübarizəyə qoşulub.



44 gün davam edən müharibə zamanı Daxili Qoşunların xüsusi təyinatlıları düşmənə amansız zərbələr vurub, onların qəhrəmanlıq nümunələri müasir hərb salnaməmizə yazılıb.

Əvvəlcə Xocavənd rayonunun Hadrut qəsəbəsində və Füzuli rayonunda mövqelərimizin müdafiəsi, ermənilərin diversiya-kəşfiyyat qruplarının qarşısının alınması üzrə döyüş tapşırıqlarını yerinə yetirən qazimizin daxil olduğu qrup sonra Şuşaya doğru istiqamət alıb.

Döyüşçülərimiz Şuşaya meşə və dağ keçidlərini aşaraq həmlə ediblər. Onlar Hadrutdan Şuşa istiqamətində hərəkət edərkən düşmənin minaatanlardan və tanklardan atəşinə məruz qalıblar. Yaralı və şəhidlərin olmasına baxmayaraq, Nicatın da daxil olduğu qrup Şuşa-Xankəndi yolu istiqamətində irəliləyib. Onlara Şuşadan Xankəndiyə gedən yolu nəzarətə götürmək tapşırığı verilib.

Qazimiz Şuşa ətrafında meşə və dərələrdə, Şuşa-Xankəndi yolunda gərgin döyüşlərin iştirakçısı olduğunu bildirdi. O qeyd etdi ki, Xankəndi istiqamətindən düşmən tanklardan və ağır artilleriyadan bizim qüvvələri atəşə tuturdu. Nicatın daxil olduğu və digər qruplar Şuşa-Xankəndi yolu üzərindəki yüksəklikdə yerləşən düşmən postlarını alaraq, Şuşaya gedən yolu nəzarətə götürüblər. Lakin Şuşa-Xankəndi istiqamətində qeyri-bərabər döyüşlərdə düşmən qüvvələrini məğlub edərək irəliləmək heç də asan olmayıb. Çünki düşmənin zirehli texnikası sürətlə mövqelərimizə doğru irəliləyirdi. Bu isə çoxsaylı əsgər ölümünə səbəb ola bilərdi. Nicat düşmənin bir neçə zirehli texnikasını sərrast atışları ilə sıradan çıxaran, onun daxil olduğu qrupun irəliləməsində böyük şücaət göstərən, onunla birlikdə xidmət etmiş baş çavuş Kənan Kərimovun qəhrəmanlığının unudulmayacağını bildirdi.

Qazimiz noyabr ayının 6-da Xankəndi-Şuşa yolunda düşmənin tankdan atəşi nəticəsində mərminin yaxınlığına düşməsi nəticəsində yaralanıb. Düşmənin atəşindən yayınmaq üçün səngərə tullanarkən qəlpə onun sol əlinin 2 barmağını aparıb, əlindəki silahı isə 2 yerə bölüb.

Nicat yaralanan zaman ona Daxili Qoşunların Hacıqabul rayonunda yerləşən "N" saylı hərbi hissəsinin xüsusi təyinatlısı gizir Şiraz Həsənovun ilkin tibbi yardım göstərdiyini söylədi: "Mənə dərhal Şiraz ürək-dirək verərək ilkin tibbi yardım göstərdi. Qanaxmanı dayandırmaq üçün qolumu jqutla möhkəm bağladı, sonra barmaqlarımın parçalanmasını görməyim deyə əlimi tənziflə sarıdı. Daha sonra mənim təxliyyə olunmağıma köməklik etdi".

Qazimiz müharibədə ən ağır sarsıntının gözlərinin önündə silahdaşlarının şəhid olduqları anlarda yaşandığını bildirdi. Yaralandığı zaman qoşunların "N" saylı hərbi hissəsinin Cəlilabad rayonundakı ayrı yerləşən patrul taborunun xüsusi təyinatlısı baş əsgər Pərviz Həsənovun (ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib) yanında başından aldığı qəlpə yarasından şəhid olduğunu ürək ağrısı ilə qeyd etdi.

Nicat yaralanmasına baxmayaraq, 3 gün, Şuşanın işğaldan azad olunduğu günə qədər döyüş bölgəsindən ayrılmayıb. Noyabrın 8-i şəhərin azad olunması xəbərinin Azərbaycan Respublikasının Prezidentinə məruzə edilməsi onun ağrılarını belə unutdurub.

"Noyabrın 8-i xalqımızın tarixində əbədi qalacaq. Noyabrın 8-də qədim Şuşa şəhəri Azərbaycan hərbçilərinin böyük qəhrəmanlığı, peşəkarlığı, milli ruhu sayəsində işğaldan azad edilib". Bu sözləri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev öz nitqində deyib.

Azərbaycan Nicat kimi oğulların sayəsində üçrəngli bayrağını azad olunan torpaqlarımızın hər guşəsində dalğalandıra bilib.

Hərbi qulluqçumuz noyabrın 8-də sanitar maşını ilə Hadruta gətirilib. Şuşa azad edilən günün səhəri - noyabrın 9-da isə Füzuli Rayon Xəstəxanasına aparılıb. Tibb işçiləri Nicata xüsusi diqqət və qayğı göstərməklə yanaşı, həm də doğum gününü qeyd ediblər. Nicat üçün bu doğum günü həyatında heç vaxt unudulmayacaq bir doğum günü olub. O, bu yeni yaşında qürurlu anlar yaşadığını vurğuladı. "Vətənimi sevərək, onun layiqli övladı olmağa çalışmışam" deyən Nicat bildirdi: "Barmaqlarımı itirmişəm, canım belə Vətənə qurbandır. Uzun illər həsrətində olduğumuz Şuşamıza qovuşduq. Bu mənim və silahdaşlarımın həyatında ən dəyərli gündür".

Daha sonra bir gün Şirvan Xəstəxanasında müalicə alan qazimiz noyabrın 11-dən müalicəsini Daxili Qoşunların Hərbi Qospitalında davam etdirib.

Daxili işlər naziri Daxili Qoşunların Hərbi Qospitalında müalicə olunan yaralı hərbi qulluqçularımıza baş çəkərkən çavuş N.Əlizadənin vəziyyəti ilə də maraqlanıb. Nicatın sol əlinin iki barmağının olmamasına baxmayaraq, onun xidmətini polis orqanında davam etdirməsini təklif edib. Hərbi qulluqçumuz bu təklifi minnətdarlıq hissi ilə qəbul edib.

Hal-hazırda polis serjantı Nicat Əlizadə Şirvan Şəhər Polis Şöbəsinin ictimai təhlükəsizlik bölməsinin sahə polis nəfəri vəzifəsindədir.

"N" saylı hərbi hissədə "Gürzə" şərti adı daşıyan xüsusi təyinatlı dəstənin komandiri, "Zəfər" ordeni, "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmiş kapitan Cavid Tağıyev dəstədə xidmət etmiş çavuş N.Əlizadənin Vətən müharibəsində tabeliyində olan qrupun tərkibində döyüşdüyünü bildirdi: "Yüksək iradə və cəsarət nümunəsi göstərən Nicat bir addım belə düşmənin güllə, mərmi atəşi altında geri çəkilməyib, hədəfə çatanadək düşmən üzərinə həmlələr edib".

Azərbaycan Respublikası Prezidentinin 18 dekabr 2020-ci il tarixli, 25 dekabr 2020-ci il tarixli və 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə çavuş Nicat Əlizadə "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Nicat Vətəninə və xalqına layiq gənc olduğunu döyüş sınağında sübut etdi.

**kapitan Sadıq Rəfiyev,**
**DİN-in Daxili Qoşunlarının**
**mətbuat xidmətində zabit**

# Azərbaycan-Türkiyə münasibətləri özünün ən qürurverici anlarını yaşayır

**Azərbaycan-Türkiyə qardaşlıq, dostluq və sıx əməkdaşlıq münasibətləri ən yüksək səviyyədə olmaqla bərabər özünün ən qürurverici anlarını yaşayır. Sevindirici haldır ki, tarixən bu iki dövlət arasındakı münasibətlərə heç bir qüvvə mane ola bilmədi. Azərbaycan və Türkiyə arasında əlaqələrin belə yüksək səviyyədə inkişafı təkcə bu dövlətlərin yox, həm də regionun ümumi tərəqqisinə, sabitliyin bərqərar olmasına öz töhfəsini verir. Eyni zamanda, Azərbaycan və Türkiyənin münasibətlərinin inkişafı türk dünyasının daha sıx şəkildə bir araya gəlməsini şərtləndirən ən mühüm amillərdən biridir. Bu gün dünyada Azərbaycan və Türkiyə qədər bir-birinə bağlı olan, bir-birinə bu qədər yaxın münasibətlərdə olan ölkələrə rast gəlmək mümkün deyil. Azərbaycan-Türkiyə münasibətləri bütün dünya üçün əsl örnəkdir. Tarixin çətin sınaqları ilə üz-üzə qaldıqda, ən çətin anlarında belə bu iki ölkə arasındakı qardaşlıq sözdə deyil, əməldə özünü göstərir.**

Ölkəmizə səfəri çərçivəsində Türkiyə prezidenti cənab Rəcəb Tayyib Ərdoğan Milli Məclisdə, millət vəkillərinin qarşısında çıxış edərkən bir daha Azərbaycan xalqına sevgisini bildirmişdir. Bir daha Azərbaycanın qalib Sərkərdəsi, Ali Baş Komandanı və Azərbaycan xalqını 44 günlük müharibədə əldə etdiyi zəfərlə təbrik etmiş və hər zaman, bu gün də, sabah da Azərbaycanın yanında olduğunu bəyan etmişdir. Cənab Ərdoğanın həm Şuşa səfəri həm parlamentdəki çıxışı həm də cənab Prezidentlə apardığı danışıqlar bütün bunlar sözsüz ki, Azərbaycan-Türkiyə münasibətlərində yeni mərhələnin başlanğıcı olmaqla yanaşı, eyni zamanda bu münasibətlər üçün yeni bir yol xəritəsi olacaqdır. Bu münasibətlərin ən böyük məqsədi hər iki dövlətin milli maraqlarını qorumaqla yanaşı, hər iki dövlətin regionda oynadığı rolu daha da artırmaqdır. Bu münasibətlər həm də region ölkələrin inkişafına əlavə imkanlar yaradacaq yeni beynəlxalq əməkdaşlıq platforması ilə nəticələnəcəkdir. Bununla bağlı cənab prezident Ərdoğan Milli Məclisdə çıxış edərkən bildirdi ki, "Altı ölkəni - Rusiya, Türkiyə, Azərbaycan, İran, Ermənistan və Gürcüstanı birləşdirən yeni platforma ilə artıq bölgədə sabitlik meydana gələcək və düşmənçiliklər aradan qalxacaqdır. Yeni platforma bütün bölgənin inkişafına xidmət edəcəkdir. Davamlı sülhə gedən yol bölgədəki bütün xalqların və dövlətlərin qarşılıqlı etimad və əməkdaşlığından keçir. Həmin mühitin yaradılması üçün ən gözəl əsaslar Azərbaycanın tarixi, mədəniyyəti və dövlət siyasətidir. Azərbaycan-Türkiyə münasibətləri hazırda özünün ən uca zirvəsinə yüksəlib. Azərbaycan və Türkiyə arasında əlaqələrin yüksək səviyyəsi ümumilikdə regionun tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verəcəkdir.

Azərbaycan-Türkiyə arasında münasibətlərin dostluq, qardaşlıq münasibətləri olduğu və heç bir zaman sarsılmayacağı özünü tarixin ən həlledici məqamlarında göstərmişdir. Müqəddəs Vətən müharibəsində Türkiyə Azərbaycanın yanında həm bir dövlət, həm də millət olaraq yer almışdır. Necə ki, R.T.Ərdoğanın qeyd etdiyi kimi, "Balkan müharibəsi zamanı Azərbaycanın Dövlət Himninin sözlərinin müəllifi Əhməd Cavad azərbaycanlı gənclərlə birlikdə Osmanlı ordusunun sıralarında döyüşübsə, necə ki, Çanaqqalada Azərbaycandan gələn igidlərlə Anadolunun dəliqanlıları birlikdə mübarizə aparıb, birlikdə şəhadətə ucalıb zəfər qazanıblarsa, necə ki, Qafqaz İslam Ordusunun aslanları - Nuru Paşanın əsgərləri o gün azərbaycanlı qardaşlarımızın yardımına gəlibsə, bu gün və gələcəkdə də bu iki xalq bərabər olacaqdır". Bu sözləri ilə cənab Prezident R.T.Ərdoğan Türkiyə-Azərbaycan münasibətlərinin gələcək prespektivlərini də bütün dünyaya açıqlamış oldu.

**Fəxrəddin Rəhimov,**
**Şirvan Şəhər Ağsaqqallar**
**Şurasının sədri**

# Şirvan şəhər prokurorluğunun əməliyyat işçilərinin 2021-ci ilin üçüncü rübündə vətəndaşların yerlərdə qəbulunun keçirilməsinə dair

## C Ə D V Ə L

| № | Qəbulun keçirildiyi yer | Tarix | İcraçılar |
|---|---|---|---|
| 1. | Şirvan «Regional Elektrik Şəbəkəsi». | 05.07.2021 | Prokuror Fuad Məmmədov |
| 2. | Şirvan şəhər, Hacıqəhrəmanlı qəsəbəsi. | 30.07.2021 | Prokurorun köməkçisi Nigar Şixkərimova |
| 3. | Şirvan Mənzil İstismar Sahəsi - 17-ci Nümunəvi məhəllə | 09.08.2021 | Prokuror Fuad Məmmədov |
| 4. | Şirvan şəhəri, Bayramlı qəsəbəsi | 31.08.2021 | Prokurorun köməkçisi Nigar Şixkərimova |
| 5. | Şirvan Mənzil İstismar Sahəsi-14-cü Nümunəvi məhəllə. | 07.09.2021 | Prokuror Fuad Məmmədov |
| 6. | Dövlət Qaçqınlar Komitəsinin Şirvan şəhərindəki nümayəndəliyi | 29.09.2021 | Prokurorun köməkçisi Nigar Şixkərimova |

**Fuad Məmmədov,**
**Şirvan şəhər prokuroru baş ədliyyə müşaviri**

# Şirvan Peşə Liseyində "Açıq qapı" günü



**10 iyun 2021-ci il tarixində Şirvan Peşə Liseyində "Açıq qapı" tanıtım tədbiri keçirilib. Tədbirdə Milli Məclisinin deputatı İltizam Yusifov, Şirvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Aynur Fərzəliyeva, şəhər Təhsil Şöbəsinin müdiri Rövşən Allahverdiyev, Gənclər və İdman İdarəsinin rəisi Azər Quliyev, Şirvan Gənclər Evinin direktoru Əfqan Həsənov, həmçinin idarə, müəssisə və təşkilatların nümayəndələri, valideynlər və şagirdlər iştirak edib.**

Açılış nitqində Liseyin direktoru Əliheydər Əlifli qonaqları salamlayaraq iştirakçılara müəssisə haqqında ətraflı məlumat verib. Tədbir iştirakçıları Liseyin ümumi fəaliyyətini əks etdirən təqdimatla tanış olmuş, dərzi, elektrik qaz qaynaqçısı, geniş profilli dəzgahçı, radioteleviziya aparatlarına xidmət və təmir, radiomexaniki elektrik avadanlıqlarına xidmət, təmir üzrə elektrik montyoru və kompüter operatoru ixtisasları üzrə dərslərdə iştirak ediblər.

Çıxış edənlər peşə təhsilinin əhəmiyyəti, şagirdlərin düzgün peşə seçiminin vacibliyi, əmək bazarında peşə təhsilinin rolu istiqamətində müzakirələr aparıblar.

Liseyin uğurlu məzunlarından olan Təbriz Soltanov və Mehman Hüseynov çıxışları zamanı şagirdlərə peşə sahələri üzrə bacarıqlara necə sahib ola biləcəkləri haqqında tövsiyyələrini verib və uğur hekayələrini bölüşüblər.

Tədbirin yekununda qonaqlar tələbələrin əl işlərindən ibarət sərgi ilə tanış olublar.

«İŞIQ»- 2021
ƏZİZ OXUCULAR!
Şirvan şəhərinin ictimai-siyasi qəzeti «İŞIQ»a 2021-ci ilin 2-ci yarısı üçün abunə yazısı davam edir.
6 aylıq abunə haqqı 14 manatdır.
«İşıq»a 6 saylı regional mətbuatı yayımı idarəsində yazılmaq olar.
H\ h- AZ39AIIB 33060019444100281141.
VÖEN -2100104521. İndeks 66858
«İşıq»a- öz qəzetinizə abunə yazılmağı unutmayın!

## ETIBARSIZDIR

Abışov Rahil Qüdrət oğluna keçmiş Əli Bayramlı şəhər hərbi komissarlığı tərəfindən (indiki Şirvan şəhəri) 24 dekabr 1999-cu ildə verilmiş müharibə iştirakçısı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

# Şirvan şəhərində dövlət qulluqçuları haqqında

**Azərbaycan Respublikası XX əsrin sonunda müstəqilliyini yenidən bərpa edərək dünya dövlətləri arasında öz layiqli yerini tutdu. Yeni yaranmış müstəqil dövlətin quruculuq prinsiplərinin müəyyən edilməsi zərurəti meydana gəldi. 1995-ci ildə ümumxalq referendumu yolu ilə ölkə Konstitusiyası qəbul edildi və müasir dünyanın tələblərinə cavab verən demokratik, dünyəvi, hüquqi dövlət quruculuğunun əsası qoyuldu. Ölkə qanunvericiliyində ümumbəşəri dəyərlərin təsbit edilməsi, Azərbaycanın Avropaya və dünya birliyinə inteqrasiaysı, beynəlxalq konvensiyalara qoşulması, qəbul olunan qanunların beynəlxalq standartlara uyğunlaşdırılması prioritet məsələ kimi önə çəkildi.**

Ölkəmizdə, beynəlxalq aləmdə qəbul edilmiş dövlət idarəetmə sistemlərinə uyğun milli dövlət quruculuğu istiqamətində islahatlar uğurla davam etdirilməkdədir. Aparılan islahatların əsas məqsədi çevik dövlət idarəçilik sisteminin formalaşdırılması, elektron hökumətin qurulması, insan və vətəndaş hüquq və azadlıqlarının yüksək dövlət təminatına nail olunması və bütövlükdə Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası prosesinin sürətləndirilməsindən ibarətdir. Həmin istiqamətdə atılan mühüm addımlardan biri də dövlət qulluğu sahəsində aparılan islahatlardır.

Yeni Konstitusiya əsasında qəbul edilmiş və dövlət quruculuğunun hüquqi bazasını təşkil edən mühüm normativ-hüquqi aktlardan biri də 21 iyul 2000-ci il tarixli fərmanla təsdiq edilmiş "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunudur. Bu mühüm dövlət sənədi yeni əsrdə ölkənin idarə olunmasını, onun müstəqilliyinin möhkəmləndirilməsini, sıravi vətəndaşların rifahının yaxşılaşdırılmasını təmin edən kadr siyasətinin uğurla həyata keçirilməsinə imkan verir və əhalinin əhəmiyyətli bir təbəqəsini təşkil edən dövlət qulluqçularının cəmiyyətdə yerini, onların hüquqlarını tənzimləyir.

Dövlət qulluğu sistemində kadr siyasətinin optimal təşkili, peşəkar kadrların düzgün seçilməsi və yerləşdirilməsi məqsədi ilə 19 yanvar 2005-ci il tarixli prezident fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın yaradılması bu sahədə atılan mühüm addımlardan biri kimi əhəmiyyət daşıyır.

Dövlət başçısının diqqəti və qayğısı sayəsində "Dövlət qulluğu haqqında" Qanundan irəli gələn bütün məsələlər davamlı olaraq həyata keçirilir. Dövlət qulluğu xidmətinin demokratik, hüquqi və dünyəvi dövlətin yaradılmasındakı rolunu və BMT Baş Assambleyası tərəfindən iyunun 23-nün Birləşmiş Millətlər Təşkilatı tərəfindən Dövlət Qulluğu günü elan edilməsini nəzərə alaraq bu tarixin Azərbaycanda dövlət qulluqçularının peşə bayramı günü elan edilməsi qərara alınmışdır. Prezidentin 2006-cı il 25 may tarixli sərəncamı ilə 23 iyun ölkəmizdə Dövlət Qulluqçularının peşə bayramı günü elan edilimişdir.

Eyni zamanda, bu sahədə yeni qanunların işlənib hazırlanmasına və qəbuluna tələbat yarandığından ölkənin milli qanunverici orqanı tərəfindən 31 may 2007-ci il tarixində qəbul edilmiş və ölkə rəhbərliyi tərəfindən imzalanmış "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu da ölkəmizdə müasir dövlət qulluğu sisteminin beynəlxalq normalara uyğun qurulması, bu sahədə qanunun aliliyinin təmin olunması istiqamətində atılan uğurlu bir addımdır. Dünya təcrübəsinə əsaslanan bu qanun dövlət qulluqçularının etik davranış qaydalarını müəyyən edir. Bu Qanuna uyğun olaraq, dövlət qulluqçusu səlahiyyətlərini yerinə yetirən zaman vicdanlı, məsuliyyətli olmalı, insanların hüququna, hüquqi şəxslərin işgüzar nüfuzuna hörmətlə yanaşmalıdır.

Son dövrlərdə beynəlxalq hüquq normalarına uyğunlaşdırılmış qanunların qəbul edilməsi ölkəmizin nüfuzunu daha da artırmış, onu dünyanın inkişaf etmiş demokratik ölkələri səviyyəsinə yüksəltmişdir.

Şirvan şəhərində 01 yanvar 2021-ci il vəziyyətinə dövlət qulluqçularının sayı 169 nəfər olmuş və onların 38 nəfəri və ya 22,5 faizini qadınlar təşkil etmişdir. Dövlət qulluqçularının 84,0 faizi inzibati vəzifələrin 4-7-ci təsnifatları üzrə, 16,0 faizi isə dövlət qulluğunun yardımçı vəzifələrində çalışmışlar.

01.01.2021-ci il tarixə şəhər üzrə muzdlu işçilərin ümumi sayının 1,1 faizini dövlət qulluqçuları təşkil etmişdir ki, bu da əvvəlki ilin müvafiq göstəricisindən 0,3 faiz azdır.

2020-ci ildə ölkə üzrə dövlət qulluqçularının ümumi sayında Şirvan şəhərinin payı 0,65 faiz, şəhərin daxil olduğu Aran iqtisadi rayonunda isə 5,5 faiz təşkil etmişdir ki, bu da əvvəlki illə müqayisədə müvafiq olaraq 0,11 və 0,3 faiz azdır. (Dövlət qulluqçularının sayındakı bu azalmaya səbəb əvvəlki illərdən fərqli olaraq, dövlət qulluğunun vəzifələrini müqavilə əsasında tutanların nəzərə alınmamasıdır.)

2020-ci ildə Şirvan şəhərində 12 dövlət orqanında dövlət qulluğunun vəzifələrini tutmuş 169 nəfər çalışmışdır ki, bu da keçən illə müqayisədə 24,5 faiz azdır. Onların 142 nəfərini və ya 84,0 faizini (keçən illə müqayisədə 5,4 faiz çox) inzibati vəzifələr üzrə, 27 nəfərini və ya 16,0 faizini (keçən illə müqayisədə 5,4 faiz az) isə dövlət qulluğunun yardımçı vəzifələri üzrə işləyən dövlət qulluqçuları təşkil etmişdir. Dövlət qulluğunun vəzifələrini tutmuş şəxslərdən 161 nəfəri dövlət qulluğunun ixtisas dərəcələrinə malik olmuşlar ki, bu da ötən illə müqayisədə 10,1 faiz azdır.

Dövlət qulluğunun vəzifələrini tutmuş işçilərin sayından inzibati vəzifələr üzrə qadınların sayı 23 nəfər və ya 16,2 faiz, dövlət qulluğunun yardımçı vəzifələri üzrə isə qadınların sayı 15 nəfər və ya 55,6 faiz təşkil etmişdir.

Dövlət qulluqçularının 17,2 faizi 1 ilə qədər, 16,6 faizi 1 ildən 5 ilə qədər, 18,3 faizi 5 ildən 10 ilə qədər, 15,4 faizi 10 ildən 15 ilə qədər, 32,5 faizi isə 15 il və daha çox qulluq stajına malik olmuşdur.

Bununla yanaşı, dövlət qulluqçularının yaş qrupları üzrə bölgüsünə uyğun olaraq, 25 yaşa qədər olanlar 6,5 faiz, 25-29 yaşda 13,6 faiz, 30-34 yaşda 16,0 faiz, 35-39 yaşda 13,0 faiz, 40-44 yaşda 15,4 faiz, 45-49 yaşda 7,1 faiz, 50-54 yaşda 5,9 faiz, 55-59 yaşda 8,9 faiz, 60-64 yaşda 13,0 faiz və 65 və yuxarı yaşda olan dövlət qulluqçuları isə şəhər üzrə dövlət qulluqçularının ümumi sayının 0,6 faizini təşkil etmişdir.

Dövlət qulluqçusu olan qadınların yaş qrupları üzrə bölgüsünə uyğun olaraq, 25 yaşa qədər olanlar 7,9 faiz, 25-29 yaşda 18,4 faiz, 30-34 yaşda 18,4 faiz, 35-39 yaşda 7,9 faiz, 40-44 yaşda 7,9 faiz, 45-49 yaşda 5,3 faiz, 50-54 yaşda 10,5 faiz, 55-59 yaşda 5,3 faiz, 60-64 yaşda olan dövlət qulluqçuları isə şəhər üzrə dövlət qulluqçusu olan qadınların ümumi sayının 18,4 faizini təşkil etmişdir.

4-7-ci təsnifatlar üzrə inzibatı vəzifələrdə çalışanların 2,8 faizini yerli icra hakimiyyəti başçısının müavinləri, 4,2 faizini yerli bölmələrin rəhbərləri, 2,8 faizini yerli bölmələrin rəhbərlərinin müavinləri, 4,2 faizini yerli icra hakimiyyətinin başçısının inzibati ərazi dairələri üzrə nümayəndələri və onların müavinləri, 0,7 faizini yerli icra hakimiyyəti başçısının köməkçiləri, 21,1 faizini məhkəmə iclasının katiblərii və hakimin köməkçiləri, 2,8 faizini şöbə müdirləri, 0,7 faizini şöbə müdirinin müavinləri, 7,1 faizini sektor müdirləri, 3,5 faizini baş mühasiblər, 14,1 faizini baş məsləhətçilər, 3,5 faizini böyük məsləhətçilər, 15,6 faizini aparıcı məsləhətçilər və 16,9 faizini isə məsləhətçilər təşkil etmişdir.-Dövlət qulluğunun yardımçı vəzifələrində çalışanların 44,5 faizini baş mütəxəssislər, 44,4 faizini böyük mütəxəssislər, 7,4 faizini aparıcı mütəxəssislər və 3,7 faizini isə mütəxəssislər təşkil etmişdir.

4-7-ci təsnifatlar üzrə inzibatı vəzifələrdə çalışan qadınların 4,3 faizini yerli icra hakimiyyəti başçısının müavinləri, 4,3 faizini yerli bölmələrin rəhbərlərinin müavinləri, 13,0 faizini məhkəmə iclasının katibləri və hakimin köməkçiləri, 4,4 faizini şöbə müdirləri, 4,4 faizini sektor müdirləri, 8,7 faizini baş məsləhətçilər, 8,7 faizini baş mühasiblər, 17,4 faizini aparıcı məsləhətçilər və 34,8 faizini isə məsləhətçilər təşkil etmişdir.Dövlət qulluğunun yardımçı vəzifələrində çalışan qadınların 6,7 faizini baş mütəxəssislər, 73,3 faizini böyük mütəxəssislər, 13,3 faizini aparıcı mütəxəssislər, 6,7 faizini isə mütəxəssislər təşkil etmişdir.

01.01.2021-ci il vəziyyətinə şəhər üzrə muzdlu işçilərə hesablanmış əməkhaqqı fondunun ümumi həcminin 1858,3 min manatını və ya 2,09 faizini dövlət qulluqçularının əməkhaqqı fondu təşkil etmişdir ki, bu da əvvəlki illə müqayisədə 0,16 faiz azdır.

2020-ci ildə şəhər üzrə dövlət qulluqçularının orta aylıq nominal əməkhaqqı məbləği 916,3 manat (onlardan inzibati vəzifələr üzrə rəhbər işçilər 1377,5 manat, o cümlədən, rəhbər qadınlar 1925,4 manat) təşkil etmişdir ki, bu da əvvəlki illə müqayisədə 30,8 faiz (onlardan inzibati vəzifələr üzrə rəhbər işçilər 30,9 faiz, o cümlədən, rəhbər qadınlar 52,8 faiz) çoxdur. Müqayisə üçün qeyd edək ki, bu göstərici respublika üzrə 1235,7 manat, şəhərin daxil olduğu Aran iqtisadi rayonu üzrə isə 802,5manat təşkil etmişdir. Dövlət qulluqçusu olan qadınların orta aylıq nominal əməkhaqqı məbləği 775,6 manat təşkil etmişdir.

2020-ci ilin yekununa görə şəhər üzrə xidməti fəaliyyəti qiymətləndirilmiş dövlət qulluqçularının sayı 115 nəfər olmuşdur ki, bu da bütün dövlət qulluqçularının 68,1 faizini təşkil edir (o cümlədən, rəhbər işçilər 17 nəfər və ya 81,0 faiz). Xidməti fəaliyyəti qiymətləndirilmiş dövlət qulluqçularının 15,7 faizi vəzifəsini gözlənildiyindən yüksək səviyyədə icra edib, 80,0 faizi vəzifəsini gözlənilən səviyyədə icra edib, 4,3 faizinin işi isə qənaətbəxşdir, vəzifəsini əsasən icra edib, inkişafa ehtiyacı vardır (o cümlədən, rəhbər işçilərdə müvafiq olaraq 29,4 faiz, 64,7 faiz və 5,9 faiz).

**Rövşən Yolçiyev,**
**Şirvan Şəhər Statistika idarəsinin rəisi**

# REDAKSİYAYA MƏKTUB

**Adətən-ötən il, elə ötən aylarda da biz Şirin Şükürov küçəsindəki 1№-li dalanın sakinləri əlaqədar təşkilatlara Su-Kanal idarəsindən şikayət yazardıq. Bu da əbəs deyildi. Xüsusi ilə isti havalarda nəinki həyət-bacamızdakı ağaclar su çatışmazlığı üzündən yanıb kül olurdu, eyni zamanda sakinlər də su qıtlığından çox əziyyət çəkirdi. Qonşumuz Sərdar Məmmədovun təşəbbüsü ilə yığılıb adını qeyd etdiyimiz idarəyə yollandıq. Vəziyyəti olduğu kimi müdiriyyətin nəzərinə çatdırdıq. Hətta yeni xətt çəkənlərə qoşulub onlara kömək edəcəyimizi də bildirdik.**

Bu iş idarənin sahə rəisi E.Tapdıqova həvalə olundu. Sahə rəisi başçılıq etdiyi briqada üzvləri S.Yahyayev və Y.Əliyev ilə dedikləri vaxtda küçəmizə gəldilər. Qonşular da söz verdikləri kimi, onlara qoşulub işin sürətlənməsinə kömək etdilər. Birgə səy öz bəhrəsini verdi. Artıq hər birimizin həyətinə su gəlir. Bu bizim hədsiz sevincimizə səbəb oldu. Axı, su həyat, rahatlıq deməkdir. Yayın qızmar günləri qarşıdadır. İnanırıq ki, bundan sonra daha sudan korluq çəkməyəcəyik.

Buna görə Su-Kanal idarəsinn rəhbərliyinə sakinlər adından təşəkkür edirik.

**Əbil ƏHMƏDOV,**
**Şirin Şükürov küçəsinin sakini**




# AYLA RƏSSAM OLACAQ, YOXSA...




**-Bu maraq onda harada, necə baş qaldırdığını deyə bilmərəm Ancaq uşaq yaşlarından Aylanın rəsm çəkməyə meyilli olduğunu müşahidə etdim. Sonra evdə istifadəsiz əşyalardan-muncuqlardan, müxtəlif oyuncaqlardan və başqa avadanlıqlardan maraqlı, diqqəti cəlb edən əl işləri düzəltdi. Aylanın həvəsini ana kimi diqqətlə izləyirdim. Mane olmurdum. Fikirləşirdim ki, bu ötəri hissdir. Yaşa dolduqca ötüb keçər. Amma illər bir-birini əvəz etdikcə onun bu sənətə ötəri hisslə baxmadığını aydın gördüm. Narahatlığım dərslərindən idi. Ehtiyat edirdim ki, hobbisi dərslərinə mane olar. Amma valideynlər iclasında bütün fənlərdən yaxşı və əla qiymətlər aldığını müəllimlərindən eşidəndə hədsiz sevindim.**

Bunu bizə Aylanın anası Sona xanım dedi.

Ayla Mahmudova Azərbaycanın Milli Qəhrəmanı Rafael Həbibovun adını daşıyan 14 nömrəli tam orta məktəbin 7-ci sinif şagirdidir. Bütün fənlərə ciddi hazırlaşan 13 yaşlı Ayla müəllimlərinin sevimlisidir. Məktəbdə sinif nümayəndəsidir Aylanı pedaqoji kollektivə və şagirdlərə sevdirən cəhətlərdən biri də budur ki, o çəkdiyi rəsmlər, yaratdığı əl işləri ilə şəhər, respublika müsabiqələrində iştirak edir, uğurları ilə hamını fərəhləndirir. Erkən yaşlarından rəsmə marağını nəzərə alaraq onu valideynləri (rəsm müəliminin tövsiyəsi ilə) Şirvan Dövlət Rəsm Qalereyasına apardılar. Burada təcrübəli müəllimlər Aylanın çəkdiyi rəsmləri, əl işlərini diqqətlə nəzərdən keçirdilər. Maraqla qarşılanan bu əsərlər Aylanın istedadından xəbər verirdi. Qalereyanın rəsm müəllimi Pərvin Mustafayeva bu qızcığaza daha diqqətlə, həssaslıqla yanaşmağa başladı. Bilmədiklərini, bu sənətin incəliklərini Aylaya yorulmadan, həvəslə öyrətməyə başladı.




Şəhərimizdə, eləcə də digər bölgələrimizdə və paytaxtda keçirilən müsabiqələrdə Aylanın yüksək pilləyə qalxacağına heç kəs şübhə etmirdi. Bu belə də oldu. Son bir neçə ildə müsabiqələrdəki uğurlarına görə Ayla neçə-neçə diplom, fəxri fərman, təşəkkürnamələr alıb.

Onlardan bir neçəsini də oxucularımızın diqqətinə çatdırmaq istəyirəm. 2016-cı ildə uşaq və gənclərin ən yaxşı yaradıcılıq işlərinin respublika müsabiqəsində «Muncuqlardan həcmli kompozisiya» nominasiyasında ikinci yerə layiq görülmüşdü. Təhsil Nazirilyinin fəxri fərmanı aldı.

Sonrakı illərdə də o bir neçə məsul müsabiqələrdə uğurla çıxış etmişdir.

Ayla rəsmlərdə, əl işlərində vətənpərvərlik mövzusuna xüsusi diqqət ayırır. Xüsusilə, ötən ilki 44 günlük Vətən mübaribəsindən sonra o bilik bacarığını şəhidlərimizin, qazilərimizin igidliklərinə həsr etmişdir. Ötən il 8 noyabr Zəfər Gününə həsr olunmuş bir neçə əsəri ilə müsabiqələrdə iştirak etmişdir. Ümumtəhsil orta məktəb şagirdləri arasında keçirilən vətənpərvərlik mövzusunda rəsm və applikasiya müsabiqəsində münsiflər heyətinin yekdil rəyi ilə birinci yerə layiq görülmüş, şəhər Təhsil şöbəsinin Diplomunu almışdır.

2021-ci il ölkə Prezidenti İlham Əliyevin məlum Sərəncamı ilə «Nizami Gəncəvi ili» elan olunmuşdur. Bu münasibətlə şəhərimizdə də bir-birindən maraqlı tədbirlər həyata keçirilir. «Nizami Gəncəvi əsərləri gənc rəssamların gözü ilə» onlayn rəsm müsabiqəsi belə tədbirlərdən idi.

Şirvan şəhər İcra Hakimiyyəti və Yeni Azərbaycan Partiyası (YAP) şəhər təşkilatının birgə keçirdikləri bu tədbirdə Ayla Mahmudova 1-ci yeri tutaraq Diplomla təltif olunub.

A.Mahmudova hazırda beynəlxalq «Pöhrə-2021» yarışmasına qatılıb. O bu yarışmanın seçim turundan uğurla keçib. Artıq yarımfinaldadır. İnanırıq ki, Ayla Mahmudova bu yarışmada da ən yüksək pilləyə yüksələcək, bizləri sevindirəcək.

Qeyd etdiyimiz kimi Aylanın 13 yaşı var. 7-ci sinifi uğurla bitirib. 8-ci sinifə keçib. Onu qarşıda nələr gözləyir? Özü də bu suala cavab verməyə çətinlik çəkir. Çünki rəssamlığa, əl işlərindən sənət nümunələri hazırlamağa həvəsi sonsuzdur. Təki bu həvəs həvəs olaraq qalmasın. Amma kim bilir: bəlkə də Ayla sabahın müəllimi, həkimi, mühəndisi olmaq qərarını verəcək. Amma biz bunu bilirik ki, Ayla balamız hansı sahəni seçsə, uğur qazanacaq. Çünki onda zəhmətkeşlik, həvəs böyükdir. Hansı sahəni seçəcəyindən asılı olmayaraq sənə uğurlar arzulayırıq, Ayla!

**F.RƏHİMOV**

# ALLAH RƏHMƏT ELƏSİN

«İŞIQ» qəzeti redaksiyasının kollektivi şəhərimizin , eləcə də respublikamızın neft sahəsinin inkişaf etdirilməsində xüsusi xidmətləri olmuş adlısanlı buruq ustası, Sosialist Əməyi Qəhrəmanı, 4 çağırış (20 il) Azərbaycan SSR Ali Sovetinin və SSRİ Ali Sovetinin deputatı, Prezident təqaüdçüsü

**AKİF MƏMİ OĞLU ƏMƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə, əzizlərinə dərin hüznlə başsağlığı verir.

Baş redaktor:
F.N.RƏHİMOV

Təsisçilər:
Şirvan şəhər İcra Hakimiyyəti başçısının aparatı və "İşıq"qəzetinin jurnalist kollektivi

Müəllifin və redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər

Materiallar redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmişdir

Qəzet BZ mətbəəsində çap olunmuşdur.

Telefonlarımız:
Baş redaktor: 6-35-60
Redaktor müavini: 6-31-35
E-mail: ishiq.qezeti@gmail.com

Ünvanımız:
Şirvan şəhəri,
İ.İ.Qayıbov küçəsi 16,
Şəhadətnamə №161
İndeks: 66858
Tiraj: 650